


# Müqayisəli Ədəbiyyatşünaslıq

## Comparative Literature Studies

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 1, 41-47, 2024
DOI: https://doi.org/10.59849/2663-4414.2024.1.41

Araşdırma Məqaləsi / Research Article


# Cəmşid Əmirovun "Sahil Əməliyyatı" və Kemel Tokayevin "Sirli İz" Povestlərinin Bədii Xüsusiyyətləri

Artistic Features of Jamshid Amirov's "Operation Sahil" and Kemel Tokayev's "Mysterious Trace" Stories


**Seyidnisə Lətifli**

E-mail:
seyidnise.m@gmail.com
Tel:+994 050-653-08-38
ORCİD:
https://orcid.org/0009-0009-9692-5772

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu



**Xülasə:** XIX əsrin ikinci yarısından etibarən dünya ədəbi prosesində bir sıra dəyişikliklər baş vermiş, yeni istiqamətlər və janrlar yaranmışdır. Belə bir ədəbi-mədəni prosesin nəticəsində yaranan janrlardan biri də detektiv janrdır. "Detektiv" sözü latın dilindən tərcümədə mənası tədqiqat, axtarış, öyrənmə, həmçinin xəfiyyə deməkdir. Bu mövzuda qələmə alınmış əsərlərin başlıca xüsusiyyəti oxucunu əqli nəticəyə aparan induktiv və ya deduktiv elmi-məntiqi təhlil metodu ilə mürəkkəb, dolaşıq müəammanın aşkar edilməsi, xeyir və şər arasındakı qarşıdurmadan yaranan gərginliyin sonda ədalətin qələbə çalması ilə mənəvi nizamın bərpa olunacağına olan inamdadır. Detektiv nəsrin formalaşma və inkişaf xüsusiyyətləri müxtəlif ölkələrdə fərqlidir. Azərbaycan və Qazax ədəbiyyatında sovet dövründə detektiv nəsrin əsası qoyulmuşdur. Azərbaycan ədəbiyyatının detektiv nəsrinin nümayəndəsi Cəmşid Əmirovla, qazax ədəbiyyatının görkəmli nümayəndəsi Kemel Tokayevin taleyi və yaradıcılığı çox bənzərdir. Hər iki müəllif sovet dövründə detektiv nəsrin bir-birindən maraqlı bədii nümunələrini yazmışlar. Cəmşid Əmirovun "Sahil əməliyyatı" və Kemel Tokayevin "Sirli iz" povestləri mövzu və ideya cəhətdən bir-birilə səsləşən əsərlərdir. Hər iki povest XX əsrin 50-ci illərində qələmə alınmış və casus detektivi mövzusundadır. Bu mövzuda yazılmış detektiv əsərlərdə əsas obrazlar casuslardır, adətən bir kəşfiyyat agentliyində işləyirlər, casus obrazının özünəməxsus portreti yaradılır və müəllif onun fəaliyyətini hərtərəfli təqdim edir. Hər iki müəllifin əsərləri vahid mövzu və ideya-məzmuna bağlı olub bədii üslub xüsusiyyətlərinə malikdir. Əsərlərdə kəşfiyyatçıların, casusların və təxribatçıların həm müharibə dövründə, həm də sülh dövründə görünməz cəbhədə fəaliyyətləri əks olunur. Məqalədə Cəmşid Əmirovun "Sahil əməliyyatı" və Kemel Tokayevin "Sirli iz" povestlərində casus detektivinin xüsusiyyətləri, əsərlərin ədəbiyyatda tutduğu mövqeyi, mövzu və ideya, süjet xüsusiyyətləri, obrazlar sistemi araşdırılmışdır. Məqalənin elmi yeniliyi Kemel Tokayevin və Cəmşid Əmirov əsərlərinin ilk dəfə müqayisəli təhlilə cəlb olunmasıdır. Müqayisəli təhlil metodundan istifadə olunmuşdur.



**Açar sözlər:** ***detektiv, casus, ədəbiyyat, obraz, kəşfiyyat***

Məqalənin gəldiyi tarix/Received: 25.10.2024
Qəbul tarixi/Accepted: 27.11.2024
Nəşr tarixi/ Available Online: 01.12.2024



**Abstract:** Since the second half of the 19th century, a number of changes have taken place in the world literary-historical process, new trends and genres have emerged. One of the genres that emerged as a result of such a literary and cultural process is the detective genre. The word "detective" is translated from Latin and means research, search, study, as well as secret. The main feature of the works written on this topic is the discovery of a complex and tangled mystery with the inductive or deductive scientific-logical analysis method that leads the reader to a mental conclusion, the belief that moral order will be restored with the victory of justice in the end of the tension arising from the conflict between good and evil.The characteristics of the formation and development of detective prose are different in different countries. The foundation of detective prose was laid in the Azerbaijani and Kazakh literature during the Soviet period. The fate and creativity of Jamshid Amirov, the representative of the detective prose of Azerbaijani literature, and Kemel Tokayev, the prominent representative of Kazakh literature, are very similar. Both of them wrote interesting artistic examples of detective prose in the Soviet era. In the Soviet era, the main direction of detective prose is social and moral problems. Jamshid Amirov's "Sahil emeliyyatı" and Kemel Tokayev's "Sirli iz" are works that resonate with each other in terms of theme and ideas. Both stories were written in the 1950s and are about a spy detective. In detective works written on this topic, the main characters are spies, usually working in an intelligence agency, a unique portrait of the spy character is created, and the author presents his activities in detail. The works of both authors are related to a single theme and idea-content and have original artistic style features. The works written in the spy detective show the activities of scouts, spies and saboteurs on the invisible front, both in wartime and in peacetime. In the spy detective, the main focus is on intelligence work. In the article, the characteristics of the spy detective, the position of the works in literature, the theme and idea, plot features, and the system of images were investigated in Jamshid Amirov's "Sahil emeliyyatı" and Kemel Tokayev's "Sirli iz". The scientific novelty of the article is that the works of Kemel Tokayev and Jamshid Amirov are included in the comparative analysis for the first time. A comparative analysis method was used.



**KeyWords.** ***detective, spy, literature, character, intelligence***


## Giriş.


**Cite as(APA 7):** Seyidnisə, L. (2024). Cəmşid Əmirovun "Sahil Əməliyyatı" və Kemel Tokayevin "Sirli İz" Povestlərinin Bədii Xüsusiyyətləri. *Müqayisəli Ədəbiyyatşünaslıq*, *2*(1), 41-47. https://doi.org/https://doi.org/10.59849/2663-4414.2024.1.41

## Giriş / *İntroduction*

Kemel Tokayev və Cəmşid Əmirovun bədii yaradıcılığı Sovet dövrü ədəbiyyatına aiddir. İdeoloji sistemlə müəyyən edilən detektiv ədəbiyyatın inkişafı onun özünəməxsus xüsusiyyətlərinin meydana çıxmasına səbəb oldu. Sovet dövrünün reallığı ondan ibarət idi ki, ədəbiyyatda yer alan mövzular ideologiyaya tabe idi. Sovet ədəbiyyatının yaradıcılıq metodu olan sosialist realizmi sovet gerçəkliyinin təbliğat metodu kimi XX əsrin altmışıncı illərinə qədər aparıcı mövqeyə malik olmuşdur. Hər iki ədib dövrün gerçəkliklərini əks etdirdikləri əsərlərində dövrün ideologiyasının təsiri hiss edilmişdir. Detektiv əsərlər didaktik əhəmiyyətə malikdir. Ədiblərin başlıca vəzifələrindən biri cəmiyyətdə baş verən real hadisələri bədii ədəbiyyata daşımaq və cəmiyyətə insanların özünə baxa biləcəyi, lazım olan yerdə düzəliş edə biləcəyi bir güzgü kimi təqdim etməkdir. Nəticədə ədəbiyyat təkcə cəmiyyətin əksi deyil, həm də cəmiyyət üzvlərinin özlərinə baxa bildiyi və müsbət dəyişikliklərə ehtiyac duyduğu islahedici güzgü rolunu oynayır. Yazıçılar hər hansı bir bədii nümunə ilə insan qəlbini, ruhunu yeni ideallar ilə işıqlandırır, həyata baxış bucağını dəyişir. “Cəmiyyətdə baş verən hadisələr ədiblərin ilham qaynağı olur” (Həsənova, 2023). Kemel Tokayev və Cəmşid Əmirov povestlərində təsvir etmiş olduğu hadisəni həm mənfi, həm də müsbət prizmadan təhlil edərək cəmiyyətdə mövcud olan ziddiyyətlərin həllində fərdin rolunu ön plana çıxarır. Bəzi hallarda bədii mətn fərdin cəmiyyətdə təzahür edən hadisəyə baxış bucağı dəyişir. “Ədəbi əsərlərin real hadisəyə təsir gücü bəzi hallarda o səviyyəyə çatır ki, insan düşüncəsini və həyati aktları idarə edə bilir, buna görə bədii əsərin dərin ədəbi-bədii, estetik qatlarına enməklə burada əks duran, ziddiyyət təşkil edən həyat hadisələrinin konyukturasını sərf-nəzər etmək, şüurun, altşüurun qneseoloji qatlarındakı ahəng və təzadların bədii əsərdə harmoniyasını araşdırmaq, həyatla bədii mətnin əlaqə keçidlərindəki fərqli və uyğun detallarını tapmaq bəzən estetik təxəyyülün imkanlarını müəyyən çərçivədən çıxarmağa kömək edir”(Rəşidzadə, 2022)

Detektiv nəsrin bu gün dünya ədəbiyyatında tutduğu mövqe müəyyən mərhələlər keçərək formalaşmışdır. Müasir dövrdə detektiv nəsrin yeni istiqamətləri, növləri formalaşmışdır ki, digər dövrlərlə müqayisədə təsvir üsulları ilə də fərqlənirlər. Bunun başlıca səbəbi dövrün tələbatı ilə bağlıdır. Sovet dövrünün ümumi mənzərəsi ilə tanış olduqda müəyyən məhdudiyyətlərin olmasının detektivin sürətli inkişafına əngəl olmasının şahidi oluruqsa, müasir dövrün detektiv əsərlərində isə mövzu müxtəlifliyi, cəmiyyətdə baş verən problemlərə daha dərindən yanaşma, hadisələrə adekvat cavabların verilməsi, yazıçının mövqeyinin əsərdə hiss edilməsi və s. məsələlərdə müstəqilliyin olması onun inkişafının başlıca şərtlərindən sayılır. *“Çağdaş Azərbaycan bədii detektivinin inkişafında əldə edilən mühüm nailiyyətlərə baxmayaraq, bir sıra mənfi amillər də özünü büruzə vermişdir, geniş oxucu əldə etmək məqsədilə əsərdə cinayətkarlığın təbliğ edilməsi, detektiv əsərlərın ədəbi dildən uzaqlaşması, obrazların dərindən işlənilməməsi, cinayət və istintaq süjet xətlərinin lazımi qədər işlənib ayrılmamasına yol verilir”*(Şərifova, 2017).

Azərbaycan və Qazax ədəbiyyatının ilk nümunələri olan — miflər, nağıllar, əfsanələr, dastanlar və tapmacalarda şər qüvvələr ilə xeyir qüvvələr arasında mübarizə olmuş, pislik, haqsızlıq, cinayət, oğurluq və s. əxlaq kodeksinə mənfi təsir göstərən, cəmiyyətin tarazlığını pozan amillər pislənmiş, işıqlı qüvvələrin qələbəsi ilə nəticələnmişdir. “Қазақ әдебиетіндегі батырлық ертегілерге мысал ретінде «Еділ-Жайық», «Құламерген», «Кер құла атты Кендебай», «Ер Төстік», т.б. көрсетуге болады”/ “Qazax ədəbiyyatında qəhrəmanlıq nağıllarına nümunə olaraq “Volqa-Jaik”, “Kulamergen”, “Ker kula attı Kendebay”, “Er Tostik” və s. göstərmək mümkündür” (Аяпова, 2020). Azərbaycan ədəbiyyatında isə sehirli nağıllar qrupuna aid olan “Məlikməmməd”, “Kiçik şəhzadə”, “Üç şəhzadə”, “Şəhzadə Mütalib” və s. kimi nümunələrdə qəhrəmanın düşmənlə mübarizəsi, oğrunun aşkara çıxarılması, pis insanların cəzalandırılması, obrazların sirlərinin məntiqi təhlili və s. kimi hadisələr təsvir olunmuşdur. XX əsrin 50-ci illərində Kemel Tokayev və Cəmşid Əmirov mənsub olduqları ölkədə detektiv nəsrin əsasını qoymuş və hər iki ədib yazmış olduğu bir-birindən maraqlı süjet xəttinə malik əsərləri ilə ədəbiyyatda xüsusi mövqeyə malikdirlər. Cəmşid Əmirovun “Sahil əməliyyatı” və Kemel Tokayevin “Sirli iz” povestləri casus detektivinin bədii örnəkləridir.

Cinayət, cinayətkarın cəzalandırılması, ədalətin bərpa olunması bir sözlə bu motivin kökləri qədim zamana qədər uzanır və müxtəlif xalqların dini görüşlərində, mifologiyasında, ədəbiyyatlarında da öz əksini tapmışdır. Bütün bu ünsürlər ədəbiyyatda detektiv nəsrin yaranmasına şərait yaratmışdır. "Hər bir ictimai-tarixi formasiya ideoloji və ictimai münasibətləri, estetik üstünlükləri doğurmuşdur ki, bu da öz növbəsində sənətdə müəyyən formasiyaların yaranması üçün zəmin yaradırdı" (Lətifli, 2023). Detektiv nəsrin mühüm əlamətlərindən biri, onun böyük idraki əhəmiyyətə malik olmasıdır. Detektiv mövzuda qələmə alınmış bədii əsərlər özünəməxsus struktura malikdir: müəmmalı bir cinayətin aşkar edilməsi, faktların məntiqi təhlil ilə izlənilməsi, ədalət və qanunsuzluq arasında toqquşma, ədalətin qələbəsi. Sirli cinayətin araşdırılması prosesi bu nəsrin özəyini təşkil edir. Zaman keçdikcə detektiv əsərlərin mövzusunda, qəhrəmanların seçimində, bir sözlə klassik detektiv prinsiplərindən əlavə yeni növ detektivlər yaranmağa başladı. Bu detektivin mövzuca rəngarəngləşməsi ilə bağlı idi. Hər dövrün öz tələbatına uyğun mövzular detektiv nəsrin mərkəzində durmuşdur. "*Hungarian writer Tibor Keszthelyi, in his small monograph "The Anatomy of a Detective," discussed the types of detective prose such as historical, social, classical, police, surreal, spy, political, psychological, and thriller"/"Macar Yazıçısı Tibor Keszthelyi "Detektivin anatomiyası" adlı kiçik monoqrafiyasında detektiv nəsrin tarixi, sosial, klassik, polis, sürreal, casus, siyasi, psixoloji, triller kimi növlərindən bəhs etmişdir*"(Keszthelyi, 1979). "In his book "The Typology of Detective Fiction," the French-Bulgarian philosopher Tzvetan Todorov identified three types of detective fiction: classical, hard-boiled, and political"/"Fransız-bolqar filosofu Tzvetan Todorov "The Typology of Detective Fiction"adlı kitabında detektivin 3 növünü qeyd etmişdir: klassik, sərt, siyasi"(Todorov, 2019). Detektiv nəsrin növlərinin formalaşmasına milli xüsusiyyətlər də əhəmiyyətli dərəcədə təsir göstərir. Azərbaycanlı tədqiqatçılar- Samirə Mirbağırova, Cəmilə Abbasova, Təbəssüm Muxtarovanın tədqiqatlarının ümumi nəticəsi olaraq detektivin Azərbaycan ədəbiyyatında növlərini bu şəkildə təsnif etmək mümkündür: klassik, polis, sərt, triller, casus, siyasi, fantastik və tarixi detektiv. XX əsrin əvvəllərində geniş miqyaslı müasir kəşfiyyat xidmətlərinin yaranması ilə müşayiət olunan əsas dünya güclərinin rəqabəti, intriqaların təsiri altında casus detektivi formalaşmışdır. "Casus detektivi II Dünya müharibəsindən əvvəl və Soyuq müharibə dövründə faşizmə və kommunizmə qarşı inkişaf etmiş, Soyuq müharibə dövründə də inkişafını davam etdirmiş və beynəlxalq cinayət təşkilatları, qlobal terror şəbəkələrinin yaranması ilə yenidən vüsət almışdır" (Lətifli, 2023). Casuslar üzə çıxaran məlumatları toplayır, düşmənlərin niyyətlərini, planlarını, əmrlərini, strategiyalarını və imkanlarını bildikdən sonra doğru qərar qəbul edib hərəkət edirlər.

*"The processes of transformation took place in the context of the socio-political processes of the time, and the genre attained new qualities and was selected in its specificity in comparison to other periods, certainly, it was in the first place directly linked to the general process that transpired in the Soviet Empire"/"XX əsrin 50-ci illərində qazax romanında dövrün ictimai-siyasi proseslərinin fonunda transformasiya prosesləri getmiş, janr yeni keyfiyyətlər qazanaraq digər zaman kəsimlərindən spesifikliyi ilə seçilmişdir, bu ilk növbədə, sovet imperiyasında baş verən ümumi proseslə birbaşa bağlı idi"* (Hasanli, 2024). Qazax ədəbiyyatında detektiv nəsrin əsası İkinci Dünya Müharibəsi veteranı, jurnalist, yazıçı, detektiv janrını qazax ədəbiyyatına gətirmiş yazıçı Kemel Tokayev tərəfindən qoyulmuşdur. Qazax ədəbiyyatının görkəmli nümayəndəsi olan Kemel Tokayev orijinal müəllif, möhkəm vətəndaş mövqeyi olan, dürüst və layiqli bir yazıçıdır. "Кемел Тоқаев қазақ әдебиетіндегі асқан таланты мен кәсіби шеберлігінің арқасында аударма мен публицистиканы ұштастырып, проза саласындағы детектив жанрының негізін қалады"/ "Kemel Tokayev qazax ədəbiyyatında böyük istedadı və peşəkar bacarığı sayəsində tərcümə və publisistikanı birləşdirərək nəsr sahəsində detektiv janrının əsasını qoyub"(Жунусова, 2021). Detektiv janr hadisələrin və kriminal situasiyaların araşdırılmasının və günahkarların axtarışının mürəkkəb yollarını təsvir edir.Onun əsərlərinin qəhrəmanları olan sadə sovet adamları xüsusi insanpərvərliyi, səmimiliyi ilə seçilirlər. Əsasən bunlar müstəntiqlər, cinayət işinin açılmasında köməklik göstərən şəxslərdir ki, nə səylərini, nə də vaxtlarını əsirgəmirlər, həyatlarını riskə ataraq təhlükəli cinayətkarları axtarırlar. Kemel Tokayev öz əsərlərində əsl qazax müstəntiqi, əsl peşəkar, işinə aşiq insan obrazlarını yaratmışdır. Oxucu hər zaman gərginlik içində olur, nəhayət, cinayətkar nə vaxt zərərsizləşdiriləcək, düşmən tərksilah olunacaq, haqq-ədalət zəfər çalacaq sualına cavab axtarır. Kemel Tokayev müharibənin dəhşətlərini təsvir edən müxtəlif əsərlər yazmış və müharibə reallığını dəyişdirmişdir. Yazıçının əsərlərinin əsas özəlliyi ondan ibarətdir ki, o, müharibə reallığını təhrifsiz məharətlə təsvir edə bilirdi. "Döyüş meydanını öz gözləri ilə görən,

hiss etdiklərini ağ kağıza köçürən yazıçının müharibə mövzusunda qələmə aldığı əsərlər real və ibrətamizdir. Onun nəsr əsərlərində əsas ideoloji fon müharibənin ədalətsizliyidir. Ədibin bir-birindən maraqlı süjet xəttinə malik əsərlərinə nümunə olaraq "Sirli iz" ("Көмескі із", 1955), "Sərqabənddəki hadisə" ("Сарғабанда болған оқиға", 1975), "Gecədə əks-səda" ("Түндегі жаңғырық"), "Son zərbə" ("Соңғы соққы", 1981), "Əsgər müharibəyə getdi" ("Солдат соғысқа кетті", 1983), "Yuvasından uçan quş" ("Ұясынан безген құс", 1983) və s. göstərmək olar. Yazıçının müharibə mövzusunda yazdığı əsərlər onun əsl cəbhəçi olduğunu göstərir. Kemel Tokayevin "Sirli iz" povesti casus detektivi mövzusunda qələmə alınmışdır. Müəllif povestdə müharibənin acı reallıqlarını hərtərəfli təsvir etmişdir. Partlayan bombalar və güllələr, kritik saatda gənc əsgərlərin şücaətlə davranması, hər birinin həyata fərqli yanaşması, eləcə də bəzi obrazların qorxaqlıq və xəyanəti, peşmanlıq hisləri xüsusi boyalarla təsvir olunmuşdur. Povest sovet çekistlərinin fərasət və cəsarətindən bəhs edilmişdir.

"Sirli iz" povesti kəşfiyyat qrupu komandiri kapitan Süleymanovun öldürülməsi və məxfi hərbi xəritənin oğurlanması ilə başlayır. Əsərin süjeti dinamikdir, hadisələr bir-biri ilə xüsusi məntiqi ardıcıllıqla davam edir. İstintaq işində mayor Rodionov, köməkçisi Tolstov, polkovnik İlyin, müstəntiq-ekspert Zaytseva xüsusi əzmkarlıqla, iştirak etmişdir. Təcrübəli mayor Rodionov istintaq zamanı bütün dəlilləri, ayaq izlərini, köməkçi vasitələri özü təhlil etmiş və şübhəliləri istintaqa cəlb etmişdir. Müəllif istintaqın gedişatındakı bütün detalları dəqiqlik ilə təsvir etmişdir: "*Тергеушінің көзі әлі сарғаймаған темекіге түсті, бұл Беломорканал маркасы, ал офицерлер «Дели» маркасын тартып отыр. Осыдан кейін Родионов марқұмның жұдырықтарының арасынан сарғайған түктерді байқаған. Ол ізіне қарап өлтірушінің қырық өлшемді етік кигенін анықтады*"/"*Müstəntiqin nəzərləri kötüyü hələ saralmayan papirosa sataşdı, bu Belomorkanal markalı papiros idi, zabitlər isə Deli markalı papiros çəkir. Bundan sonra Rodionov mərhumun yumruqlarının arasında sarı tüklərə diqqət yetirdi. Ayaq izlərindən təyin etdi ki, qatil qırx ölçülü çəkmə geyinibmiş*"(Keszthelyi, 1979). Cinayət izlərinin tapılması ilk növbədə mayor Rodionovun və müstəntiq-ekspert Zaytsevanın hadisənin baş verdiyi yerə gedərək araşdırılmasından başlanmışdır. Hadisə yerində casusun hərəkətləri təsvir olunur, amma Rodionov bu qadından şübhələnsə də həmən an şübhəlilər siyahısına əlavə etmir. Onun ilk şübhəlisi kapitan Süleymanovun qardaşı leytenant Malyardır, çünki hadisə zamanı o da postda olmuşdur. Hadisə yerində ilk sübut Rodionovun "Kazbek" markalı papirosun "Belomorkanal" markalı papirosla ilə dəyişdirilərək izlərin itirilməsini müşahidəsi zamanı tapması zamanı ortaya çıxmışdır. Casus cinayətin izlərini itirmək üçün bu cəhdə əl atmışdır. Sonrakı dəlillər isə kapitan Süleymanovun əlində tapılan sarı uzun tüklər və ayaq izlərinin 40 ölçüyə uyğun gəlməsi idi. Bütün dəlillər əldə edildikdən sonra Rodionov şübhəliləri, ətrafda baş verən hadisələri məntiqi şəkildə bir-birilə əlaqələndirərək casusun aşkar olunmasında müstəsna xidmətlər göstərmişdir. Əsərin əvvəllində təsvir olunmuş paraşütçü qadın obrazı kimliyini dəyişdirərək Lyudmilla Belovanın yerinə keçən alman casusu, Qış Qaranquşu ləqəbi ilə tanınan Ley idi. Povestin sonunda Rodionov tərəfindən alman casusu Ley saxlanılmış, günahını boynuna almış və cəzalandırılmışdır.

Yazıçı-publisist, jurnalist, ssenarist Cəmşid Əmirov (1918-1982) Azərbaycan ədəbiyyatında detektiv nəsrin təşəkkülü və formalaşmasında özünəməxsus rolu olan sənətkardır. Cəmşid Əmirovun detektiv nəsri dövrün mühüm ədəbi hadisəsinə çevrilmiş, əsərləri müxtəlif dillərə tərcümə olunmuşdur. Ədibin yaradıcılığında müharibə mövzusu mühüm yer tutur. Sovet vətənpərvərliyi, sosial humanizm, xalqlar dostluğu, proletar beynəlmiləlçiliyi kimi yüksək duyğular, işıqlı fikirlər və bu keyfiyyətlər uğrunda mübarizədə təzahür edən rəşadət, iradə, əzm, cəsarət — həmin əsərlərinin qəhrəmanları üçün ən mühüm səciyyəvi xüsusiyyətlərdir. O, 1958-ci ildə "Sahil əməliyyatı" povestini çap etdirməklə ədəbiyyatımızda detektiv nəsrin əsasını qoymuşdur. "Cəmşid Əmirov Böyük Vətən müharibəsində iştirak etmiş və şahidi olduğu hadisələri "Sahil əməliyyatı" povestində əks etdirmişdir" (Lətifli, 2024). Asayişin keşiyində duran milis işçilərinin həyatından bəhs edən bu əsərdə onların cinayətkarlarla mübarizəsi, qorxmazlığı, peşələrinə olan ciddiyyəti bədii boyalarla əks olunmuşdur. "Sahil əməliyyatı" povesti bədii dilinin axıcılığı, obrazların çoxşaxəliliyi diqqəti cəlb edir. Hadisələr vahid problem ətrafında cərəyan edir.

Əsər Mühəndis Əzimovun evinin qarət edilərək Dövlət Təhlükəsizlik Komitəsi üçün hazırladığı vacib çertyojların oğurlanması ilə başlayır. Əsərin təsvir edilən casusların məqsədi mühəndis Səlim Əzimovun elmi işinə aid çertyojları ələ keçirmək və onları xaricə göndərməkdir. Təbii ki, casusların planı yalnız bundan ibarət deyildi. Sovet ordusunun sarsıdıcı zərbələri altında geri çəkilən Almaniya Silahlı qüvvələri bu məğlubiyyət ilə barışmadığına görə onlar öz casuslarını şəhərin hər yerinə kimliyini dəyişdirərək göndərib öz mənfur əməllərini həyata keçirirdilər. Onların Sovetabad şəhərini seçməsi təsadüfi deyildir. Sovetabad şəhəri Sovet İttifaqının böyük sənaye mərkəzlərindən biri idi. Orada ağır sənayenin, dənizçiliyin inkişaf etməsi və neft mədənlərindən duru yanacağın çıxarılması onların diqqətini daha çox bu şəhərə cəmləmişdi. Müsbət qütbdə duran obrazlardan biri Dövlət Təhlükəsizlik Komitəsinin ən yaxşı əks-kəşfiyyatçısı Oqtay Çingizovdur. Casusların tapılmasında, izlərin aşkara çıxarılmasında hər bir detalı xüsusi şəkildə incələyən onun dövlət qarşısında öz borcunu ləyaqətlə yerinə yetirir. Yazıçı onun fəaliyyətini bütün cizgilər ilə qələmə almışdır. Çingizovun cinayət yerini araşdırarkən apardığı müşahidələr, bütün izlərin dəqiqliklə aşkara çıxarılması, əks-kəşfiyyatçılara məxsus biliklərdən mahir şəkildə istifadə etməsi, başladığı ciyanəti sonadək xüsusi əzmkarlıqla bitirməsi və s. kimi hadisələrdə bunun şahidi oluruq. Dövlət Təhlükəsizlik Komitəsinin bütün əməkdaşları dövlətin təhlükəsizliyi üçün canla-başla çalışırlar. Cəmşid Əmirovun əsərlərinin özünəməxsus cəhətlərindən biri burada cinayət işinin izlərinin aşkar edilməsində kollektiv işi özünü göstərir. Anatoli Konstantinoviçin uzaqgörən siyasəti, Aleksandr Denisovun bacarığı, Adil Cabbarov və kiçik leytant Qasımovun Nikezin-Neçipurenkonun ələ keçirilməsində rolu və s. hadisələr təsvir olunmuşdur.Əsərin sonunda „Si Ay Si" gizli kəşfiyyat idarəsinin casusları məhkəmə qarşısında cəzalandırılırlar.

Cəmşid Əmirovun "Sahil əməliyyatı" və Kemel Tokayevin "Sirli iz" povestlərinin hər biri dövlət əhəmiyyətli sənədlərin, çertyojların oğurlanması ilə başlayır. "Sirli" iz povestində qətl və oğurluq hadisəsi eyni anda baş verirsə, "Sahil əməliyyatı" povestində cinayət keçmişdə işlənmiş və sonradan qatillər tapılır. "Sahil əməliyyatı" povesti hadisələrin və obrazların çoxşaxəliliyi ilə seçilirsə, "Sirli iz" povestində hadisələr lakonik və yığcamdır. Müəlliflər əsərlərdə oxucuya aydın sübut və dəlillər verərək bu zaman oxucunun məntiqinə təsir edir və bütün hekayəni vizuallaşdırmaq üçün dil və üslub vasitələrindən istifadə edir. Oxucu üçün səbəb-nəticə əlaqələri qurur şərti olaraq fərziyyə irəli sürməyi təklif edir, oxucunun linqvistik-stilistik proqnozlaşdırma qabiliyyətinin inkişaf etdirir. Oxucuya təsvir edilən hadisələr aydındır, sübutlar verilib və səbəbləri tapmaq tövsiyə olunur. Hər iki əsərdə müharibə dövrü reallıqları əks olunmuşdur. Müharibə dövründə vətənə sədaqətlə xidmət edən əsgərlərlə yanaşı xainlik edən sapı özümüzdən olan baltalar, mənfur niyyətlətini həyata keçirməyə hər yolla nail olmaq istəyən düşmən surətlərini təsvir etmişlər. "Müəlliflər povestlərində qəddar cinayətkarların əsl obrazını, portretini, danışıq tərzini, dialoq quruculuğunu hərtərəfli təqdim etmişdir"(Keszthelyi, 1979). Casus detektivində yazılmış əsərlərdə qətl və qətlləri kimin törətməyinin əhəmiyyəti yoxdur, çünki əsas məqsəd bu intriqaların səbəbkarlarını aşkara çıxarmaqdır. "Cəsus yüksək peşəkar qabiliyyətə malik olmalıdır: dəqiq yaddaşa, siyasi terminologiya biliyinə, parolların və siqnalların ötürülməsi bacarığına" (Lətifli, 2024). "Sirli iz" povestində bir casus obrazı- Qış Qaranquşu-Ley, "Sahil əməliyyatı" povestində isə dörd casus- Yelena Mixaylovna, Freylen Luiza, Kembpell və Nikezin obrazları yaradılmışdır. Hər iki povestdə casusların hər biri alman agentidir, onlar sovet hökumətinə qarşı rolda çıxış edirlər. Casus detektiv mövzusunda yazılmış əsərlərə məxsus xüsusiyyətlərdən biri də əsərdə casus parollarının istifadə olunmasıdır. Məsələn, "Sirli iz" əsərində əsərin sonunda casusun etirafında "Біздің топқа кірген барлаушылар туралы айтып, Қысқы қарлығаштың паролін айта аламын"/"Öz qrupumuza daxil olan casuslar haqqında məlumat verə, Qış Qaranquşunun şifrəsini söyləyə bilərəm"(Тоқаев, 1965) , "Sahil əməliyyatı" povestinin isə "Casus parolu" adlı II fəslində Fon Renau və Nikezinin danışığında "Qardaş ürəyim üzüm istəyir. Bir az üzüm satarsınızmı? Nə qədər istəyirsən? - İki kilo", "Bu balığı neçəyə verirsən? Ucuz, qəşəng xanım, ikicə kilo ətin qiymətinə. Vallah bayaq opera teatrının qarşısında bir çolaq kişi iyirmi iki manata istədi vermədim"(Əmirov, 1958) və s. kimi nümunlərdə casusların xüsusi danışıq parolları olmasının şahidi oluruq.

İzləmək və şəxsiyyəti dəyişdirmək kimi cəsus detektivinin xarakterik xüsusiyyətləri vardır. "Bilgi bazen bireylerin istihbarat ajanları tarafından doğrudan gözetlenmesi yoluyla, bazen de gizli

bilgilerin elektronik araçlarla izlenmesi yoluyla elde edilir"/ "Məlumatlar bəzən şəxslərin birbaşa kəşfiyyatçılar tərəfindən izlənilməsi, bəzən isə məxfi informasiyalar elektronik imkanlar vasitəsilə izlənilərək əldə olunur"(Eker, 2016). Şəxsiyyəti dəyişdirmək ən çox istifadə olunan üsullardan biridir. Məhz bunun vasitəsilə casus özünə aid olmayan sənədləri öznünküləşdirərək şəxsiyyətini asanlıqla dəyişib izini itirir. Müəllif bunun vasitəsi ilə yaratmış olduğu cəsus obrazının müxtəlif məkanlara girməsinə və məlumat toplamasına zəmin yaradır. "Sahil əməliyyatı" əsərində freylen Luiza Tanya Ostapenkonun, Pyotr Afanasyeviç isə Nikezin-Neçipurenkonun sənədlərini oğurlayaraq, "Sirli iz" povestində isə casus Ley Lyudmilla Belovanı qətlə yetirib onların yerinə keçmişlər. Hər iki povestdə qəddar qadın casusu obrazı təsvir edilmişdir. "Sirli iz" povestində bu obraz Rodionovun izində olduğu Qış Qaranquşu ləqəbli- Ley, digərində isə Oqtay Çingizovun uzun müddətdir yaxalamaq istədiyi mələikə üzlü, cəllad ürəkli qadın freylen Luiza idi.

"Sirli iz" və "Sahil əməliyyatı" povestləri konsentrik süjet tipinə aiddir. Konsentrik süjet tipi bütün hadisələrin bir münaqişə ətrafında cərəyan etdiyi, hər şeyin səbəb-nəticə əlaqələrinə tabe olduğu süjet növüdür.

"Sahil əməliyyatı" povestində təsvir olunan casuslar birxətt üzrə deyil, müxtəlif istiqamətdə cinayətlər törədirlər və bütün bu proseslər "Sirli iz" əsərindən fərqli olaraq daha geniş planda təsvir olunur.

"Sahil əməliyyatı" və "Sirli iz" povestlərinin final səhnəsi detektiv nəsrin tələblərinə uyğun olaraq xeyirin şər üzərində qələbəsi ilə, cinayətkarların cinayətə cəlb olunması ilə bitir. Detektiv əsərlərin müəlliflərinin məqsədi, cinayətlərin sosial mənşəyini açıqlamaq, müəyyən əxlaqi məsələləri nəzərdən keçirmək və bu səbəbdən böyük ictimai və siyasi əhəmiyyətə, aktuallığa malik olan hadisələri geniş planda təsvir etməkdir.

**Nəticə**

"Sirli iz" və "Sahil əməliyyatı" povestlərində cəmiyyətdə baş verən böyük cinayətlər, tarixi hadisələr, cəbhə xəttində baş verən cinayətlərin ifşası, müstəntiqlərin şücaəti təsvir edilmişdir. Povestlərdə qələmə alınmış hadisələrin canlılığı, dilinin axıcılığı, obrazların orijinallığı, mövzunun aktuallığı, əhatə dairəsinin genişliyi cəhətdən zəngin bədii struktura malikdir.

Kemel Tokayev və Cəmşid Əmirov detektiv ədəbiyyatın inkişafına mühüm töhfələr vermişlər. Qazax və Azərbaycan detektiv ədəbiyyatının təbiətindən və tarixindən, onun inkişaf meyillərindən görünür ki, hər birinin özünəməxsus istiqaməti, tematik xüsusiyyətləri, bədii-estetik dəyərləri, mətn strukturu vardır

## Ədəbiyyat / *References*


Eker, B. (2016). "Bilgi Toplumunun Edebî Ürünü Casus Romanları ve Casus Romanlarının İstihbarat Boyutu". *21. Yüzyılda Eğitim ve Toplum*, *5*(14), 55-63.

Əmirov, C. (1958). *Sahil əməliyyatı*. Uşaqgəncnəşr.

Hasanli, M. A. (2024). Style Mosaic of the Mo Dern Kazakh Novel. *Revista Universidad Y Sociedad*, *16*(3), 121-126. <Go to ISI>://WOS:001274914400013

Həsənova, N. (2023). *MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN "HEYDƏRBABAYA SALAM" POEMASINDA AŞIQ VƏ SAZ OBRAZLARI* DOKTORANT VƏ GƏNC TƏDQİQATÇILARIN XXVI RESPUBLİKA ELMİ KONFRANSININ (NASCO XXVI) M A T E R İ A L L A R I, https://arti.edu.az/wp-content/uploads/2024/03/NASCO-XXVI-Humanitar-elml%C9%99r-2-ci-cild_compressed.pdf

Keszthelyi, T. (1979). *A detektívtörténet anatómiája*.

Lətifli, S. (2023). CƏMŞİD ƏMİROVUN "BRİLYANT MƏSƏLƏSİ" VƏ KEMEL TOKAYEVİN "DAMĞALI QIZIL" POVESTLƏRİNDƏ POLİS DETEKTİVİNİN ƏLAMƏTLƏRİ. *Müqayisəli Ədəbiyyatşünaslıq*(1), 105-109 https://doi.org/10.59849/2663-4414.2023.1.105

Lətifli, S. (2024). Jamshid Amirov's novel "My true love" as a literary example of a spy detective. *Modern Scientific Method*, *6*, 114-117. https://ojs.scipub.de/index.php/MSM/article/view/3407

Rəşidzadə, L. (2022). Roman və qəhrəman problemi yeni konteksdə. *525-ci qəzet*. https://www.anl.az/down/meqale/525/2022/yanvar/774987.htm

Şərifova, S. (2017). Çağdaş Azərbaycan ədəbiyyatında detektiv: janrın mənzərəsinə bir baxış. *525 qəzet*, 4. https://525.az/news/71512-cagdas-azerbaycan-edebiyyatinda-detektiv-janrin-menzeresine-bir-baxis

Todorov, T. (2019). The Typology of Detective Fiction (1966). In *Crime and Media* (pp. 11).

Аяпова, Г. Б. (2020). ҚАЗАҚ ӘДЕБИЕТІНДЕГІ ДЕТЕКТИВ ЖАНРЫНЫҢ ДАМУЫ (Кемел Тоқаевтың прозасы негізінде). *Актуальные научные исследования в современном мире*, *1*(5), 55-58.

Жунусова, А. К. (2021). Кемел Тоқаев – детектив жанрының атасы *Қазақ тілі мен әдебиеті*, *10*, 66-71.
Тоқаев, К. (1965). *Замандастар сыры : журналистің жол дәптерінен*. Қазақстан.